# AZƏRBAYCANDA BƏLƏDİYYƏLƏRİN SİSTEMİ
# VƏ MÖVCUD İQTİSADİ DURUMU BARƏDƏ EKSPERT QİYMƏTLƏNDİRMƏSİ №1

**Bələdiyyələrin icra hakimiyyətindən müstəqil şəkildə həyata keçirdikləri səlahiyyətlər**

Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikası Qanununun 4.2-ci bəndinə əsasən bələdiyyələr yerli sosial müdafiə və sosial inkişaf proqramları həyata keçirə bilir.

1. Yerli sosial müdafiə və sosial inkişaf proqramlarında məqsəd dövlətin həyata keçirdiyi sosial inkişaf proqramlarında nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli sosial inkişaf məsələlərini həll etməkdir (yerli sosial müdafiə və sosial inkişaf proqramlarını həyata keçirərkən bələdiyyələr bu maddənin 2-ci bəndində göstərilən məsələlər üzrə dövlət orqanlarının müvafiq proqramlarının həyata keçirilməsinə müdaxilə etmədən).

2. Həmin proqramlar (aqrar, sənaye, rabitə, nəqliyyat və digər sahələri əhatə edir):

   2.1. təhsil binalarının saxlanılması və istifadə edilməsi,
   2.2. səhiyyə binalarının saxlanılması və istifadə edilməsi,
   2.3. mədəniyyət binalarının saxlanılması və istifadə edilməsi,
   2.4. yaşayış binalarının saxlanılması və istifadə edilməsi,
   2.5. qeyri-yaşayış binalarının saxlanılması və istifadə edilməsi,
   2.6. sanitariya müəssisələrinin təşkili, saxlanılması və inkişafı,
   2.7. su təchizatının və kanalizasiya təsərrüfatının təşkili, saxlanılması və inkişafı,
   2.8. yanacaq təchizinin və satışının təşkili,
   2.9. bələdiyyə yollarının tikilməsi və saxlanılması,
   2.10. mənzil tikintisi,
   2.11. yerli əhəmiyyətli su mənbələrindən istifadə,
   2.12. yerli nəqliyyat və rabitə xidmətinin təşkili,
   2.13. ticarət, ictimai iaşə və məişət xidmətinin təşkilinə şərait yaradılması,
   2.14. mədəniyyət müəssisələrinin inkişafına yardım göstərilməsi,
   2.15. tarix və mədəniyyət abidələrinin saxlanılması,
   2.16. informasiya xidmətinin təşkili,
   2.17. kütləvi informasiya vasitələrinin fəaliyyəti üçün şərait yaradılması,
   2.18. kimsəsizlərə, xəstələrə, qocalara, maddi imkansızlara, valideyn himayəsindən məhrum olmuş, həmçinin istedadlı uşaqlara əlavə yardım, fiziki tərbiyə və idmanın inkişafına yardım göstərilməsi,
   2.19. əhalinin məşğulluğuna, adamların peşələri üzrə işlə təmin olunmasına gənclərin sosial hüquqi müdafiəsinə,
   2.20. ailə kəndli təsərrüfatının inkişafına kömək göstərilməsi,
   2.21. yerli infrastrukturun digər sahələrini əhatə edə bilər,
   2.22. mütəmadi olaraq mövcud qəbiristanlıqların qorunması, saxlanılması, idarə olunması, abadlaşdırılması, köçürülməsi, yeni qəbiristanlıq sahələrinin ayrılması,
   2.23. yas mərasimlərinin keçirilməsi üçün nəzərdə tutulmuş tikililərin təmiri və yenilərinin inşası,

2.24. mərasim və dəfn xidmətlərinin, o cümlədən bələdiyyənin ərazisində yaşayan əhalinin aztəminatlı təbəqəsindən olan mərhumların dəfn və yas mərasimlərinin təşkilinə yardım göstərilməsi nəzərdə tutulmalıdır.

Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasinin Qanununun 6-cı maddəsinə əsasən yerli ekoloji proqramlar həyata keçirə bilir.

Yerli ekoloji proqramlarda məqsəd dövlətin həyata keçirdiyi ekoloji proqramlarda nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli ekoloji təmizlik məsələlərinin həllinə Bələdiyyələr dövlətin ekoloji proqramları ilə yerli ekoloji proqramların əlaqələndirilməklə müəyyən hallarda birgə tədbirlərin həyata keçirilməsinə yardım göstərməklə yerli əhalinin hamılıqla cəlb edilməsi ilə həmin proqramlara yerli şəraitdə:

1. mövcud olan ekoloji tarazlığın qorunub saxlanılması,
2. bələdiyyə ərazisinin yaxşılaşdırılması və abadlaşdırılması,
3. məişət tullantılarının yığılması, nəql edilməsi, zərərsizləşdirilməsi, emalı və bu sahədə başqa məsələlərin həlli üçün tədbirlər görülməsi,
4. suyun, havanın, torpağın hər cür çirklənmədən qorunması,
5. qonşu bələdiyyələrlə birgə ekoloji tədbirlərin həyata keçirilməsi
6. yerli əhəmiyyətli digər tədbirlər daxil edilə bilər.

**Bələdiyyələr arası əməkdaşlıq**

Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən bələdiyyələr ittifaqlar qanunvericiliyinə uyğun qaydada qeydiyyata alınmaq şərti ilə, öz fəaliyyətini əlaqələndirmək, hüquq və mənafelərini daha səmərəli həyata keçirmək məqsədilə ittifaqlar yarada bilərlər. Hal-hazırda Azərbycanda ittifaq olaraq şəhər, qəsəbə və kənd assosiasiyaları mövcuddur.

*Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyasına üzv olan bələdiyyələrin siyahısı (69 şəhər bələdiyyəsi-2015 məlumatı)*
*Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyasına üzv olan bələdiyyələrin siyahısı (141 qəsəbə bələdiyyəsi-2015 məlumatı)*
*Azərbaycan Kənd Bələdiyyələrinin Milli Assosiasiyasına üzv olan bələdiyyələrin siyahısı (1228 kənd bələdiyyəsi-2015 məlumatı).*
Bələdiyyələr və bələdiyyələrin assosiasiyaları müvafiq icra hakimiyyəti orqanı (AR Xarici işlər nazirliyi) ilə razılaşdırmaqla xarici dövlətlərin yerli özünüidarəetmə orqanları ilə əməkdaşlıq haqqında müqavilələr bağlaya və yerli özünüidarəetmə orqanlarının ixtisaslaşdırılmış təşkilatlarına üzv ola bilərlər.

***Şərh:*** *Yuxarıda göstərilmiş maddəyə əsasən bələdiyyələr AR Xarici işlər nazırlıyinin digər ölkələrdəki nümayəndəliklərinə rəsmi məktub yazmaq və razlıq almaqla, öz aralarında müqavilə bağlayıb əməkdaşlıq edə bilərlər. Lakin reallıqda prezident adminstrasiyasi və icra hakimiyyətindən razılıq alınmalıdır. Bu isə bələdiyyələrin fəaliyyətini məhdudlaşdırır. Məsələn, Türkiyənin Karasu bələdiyyəsi ilə Şəmkir bələdiyyəsi arasında ikitərəfli əməkdaşlıq üçün razlıq əldə edilmişdir. Diaspor təşkilatlarından biri sənədləri hazır etsə də, Azərbaycan tərəfinin qeyri-rəsmi proses və icazələri səbəbindən sənəd imzalanmadı. Karasu bələdiyyəsi isə bir saat içində*

*bələdiyyə məclis üzvlərini toplayaraq protokolu imzaladı. Yəni bələdiyyələr xarici faliyyətlərində belə müstəqildilər.*

Müvafiq icra hakimiyyəti orqanı bələdiyyə üzvləri və qulluqçularının peşəkarlıq səviyyəsinin artırılması məqsədilə xarici dövlətlərin yerli özünüidarəetmə orqanları, onların assosiasiyaları və ixtisaslaşdırılmış təşkilatları ilə təcrübə mübadiləsini təşkil edir.

***Şərh:*** *Hər hansı bələdiyyə ancaq dövlət proqramı çərçivəsində bu cür təlim və əməkdaşlıqda iştirak edə bilir və müstəqil addım ata bilmirlər. Bunun da səbəbləri bələdiyyə üzvlərinin qanundan məlumatsız olmalarıdır. Üzvlər seçilmirlər, təyin olunurlar deyə, icra hakimiyyətlərinə bir başa tabe olmaları müstəqil fəaliyyət göstərmələrinə mane olur və qanunun olmasına rəğmən icra başçılarının icazəsi olmadan heç bir addım ata bilmirlər.*

**Nümünə:** 2013-2018-ci il tarixləri arasında Türkiyənin Sakarya vilayətində qurulmuş təşkilat diaspor fəaliyyəti ilə məşğul olurdu. Orada 3 Xocalı soyqırım parkı salınmış, fərqli işlər görülmüşdür. Bunlardan da biri Şəmkir şəhər bələdiyyəsi ilə Sakarya bələdiyyəsi arasında iki tərəfli protokolun imzalanması və işadamlarının cəlb edilməsi idi. Türkiyə tərəfi bir saat ərzində qərar versə də, Azərbaycan tərəfindən hələ də cavab gözlənilir. Türkiyənin razlaşmasına dair rəsmi sənəd Azərbaycan baş konsulluğuna təqdim edilmişdir. Sənəd Şəmkir bələdiyyəsi, rayon icra hakimiyyəti və prezident administrasiyasına göndərilmişdir. İlk iki qurumdan cavab gəlsə də, PA-dan cavab gəlmədi. Bu isə bələdiyyələrin müstəqilliyinin sözdə olmasının göstəricisidir. Qanunda isı ancaq Azərbacan Xarici işlər nazirliyinin razılığı tələb olunur.

**Bələdiyyələrin faktiki gəlirlərinin strukturu. Bələdiyyələrin mərkəzi dövlət büdcəsində maliyyə yükü. Gəlir strukturunun hissələri üzrə və bələdiyyələrin qrupları üzrə gəlirlərin həcmi (2010-2020)**

Azərbaycanda bələdiyyələrin 2015-2020-ci illər arasında ölkə üzrə toplam gəliri aşağıdakı cədvəldə göstərilmişdir:



Azərbaycanda bələdiyyələrin 2015-2020-ci illər arasında iqtisadi rayonlara görə toplam əldə edilən gəlir aşağıdakı cədvəldə göstərilmişdir:




| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| Bakı şəhəri (53) | 8425.6 | 8887.3 | 9728.8 | 9729.6 | 9849.2 | 9069.9 |
| Aran iqtisadi rayonu(467) | 4615.5 | 5205.8 | 5724.4 | 5531.1 | 5912.3 | 5466 |
| Şəki-Zaqatala iqtisadi rayonu (145) | 2671.9 | 3872.5 | 4436.3 | 4789.1 | 5180.6 | 6143.2 |
| Abşeron iqtisadi rayonu (30) | 6460.9 | 4132.8 | 4604.1 | 3656.2 | 3354.5 | 3169.2 |
| Gəncə-Qazax iqtisadi rayonu(265) | 2816.9 | 3262.7 | 4145.8 | 5153.5 | 4442.5 | 3647.1 |
| Quba-Xaçmaz iqtisadi rayonu (127) | 2522.7 | 2809.1 | 3344.5 | 3449.6 | 3732.3 | 3530.6 |
| Lənkəran iqtisadi rayonu (179) | 1207.1 | 1409.3 | 1811.3 | 1449.6 | 1460.5 | 1096.6 |
| Dağlıq-Şirvan iqtisadi rayonu (110) | 974.2 | 1073.6 | 1237.4 | 1125.9 | 1319.5 | 1267.8 |
| Naxçıvan MR (171) | 820.6 | 688.5 | 758.7 | 787.6 | 851.1 | 1072.9 |
| Yuxarı-Qarabağ iqtisadi rayonu (60) | 288.5 | 275.6 | 288.1 | 301.5 | 279.3 | 507.3 |

2015-2020-ci illər arasında ən çox gəlirin olduğu iqtisadi rayon ölkə üzrə əldə edilən gəlirin təqribən 27% ilə Bakı şəhəri iqtisadi rayonu olmuşdur. Ən az gəstərici isə ölkə üzrə əldə edilərn gəlirin təqribən 1% ilə Yuxarı-Qarabağ iqtisadi rayonu olmuşdur.

**Bələdiyyə büdcələrinin gəlirləri üzrə ümumi göstəriciləri:**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| **Ölkə üzrə, cəmi** | **30803.9** | **31617.2** | **36079.4** | **35973,7** | **36381,8** | **34970,6** |
| o cümlədən: Naxçıvan MR | 820.6 | 688.5 | 758.7 | 787,6 | 851,0 | 1072,9 |
| Bakı şəhəri | 8425.6 | 8887.3 | 9728.8 | 9729,6 | 9849,2 | 9069,9 |
| **Abşeron iqtisadi rayonu** | **6460.9** | **4132.8** | **4604.1** | **3656,2** | **3354,5** | **3169,2** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Sumqayıt şəhəri | 1030.7 | 1506.5 | 1629.8 | 1635,5 | 1424,4 | 1269,8 |
| Abşeron rayonu | 5289.2 | 2514 | 2859.2 | 1896,3 | 1746,0 | 1782,8 |
| Xızı rayonu | 141 | 112.3 | 115.1 | 124,4 | 184,1 | 116,5 |
| **Gəncə-Qazax iqtisadi rayonu** | **2816.9** | **3262.7** | **4145.8** | **5153,5** | **4442,5** | **3647,1** |
| Gəncə şəhəri | 478.6 | 531.5 | 614.4 | 627,9 | 960,2 | 932,1 |
| Ağstafa rayonu | 162.7 | 162.9 | 199.2 | 176,9 | 155,8 | 176,7 |
| Daşkəsən rayonu | 72.1 | 143.6 | 123.1 | 135,6 | 118,1 | 116,5 |
| Gədəbəy rayonu | 287.8 | 224.8 | 241.6 | 235,1 | 215,7 | 220,4 |
| Goranboy rayonu | 279.8 | 273.5 | 277.3 | 306,6 | 217,8 | 228,3 |
| Göygöl rayonu | 320.7 | 300.4 | 412 | 337,8 | 516,5 | 278,1 |
| Qazax rayonu | 259.4 | 344.5 | 771.5 | 2009,2 | 911,9 | 485,8 |
| Samux rayonu | 130.8 | 169.7 | 203.9 | 182,8 | 160,9 | 143,4 |
| Şəmkir rayonu | 471.9 | 645.8 | 801.8 | 736,3 | 773,0 | 633,4 |
| Tovuz rayonu | 280.2 | 292.3 | 319.5 | 265,9 | 259,4 | 264,5 |
| **Şəki-Zaqatala iqtisadi rayonu** | **2671.9** | **3872.5** | **4436.3** | **4789,1** | **5180,6** | **6143,2** |
| Balakən rayonu | 441.1 | 502.5 | 609.6 | 584,5 | 567,8 | 677,8 |
| Qax rayonu | 361.2 | 605.6 | 710.4 | 577,9 | 633,0 | 532,9 |
| Qəbələ rayonu | 189.8 | 310.4 | 340.8 | 608,6 | 854,7 | 600,5 |
| Oğuz rayonu | 272.1 | 353.3 | 440.7 | 468,0 | 594,1 | 335,7 |
| Şəki rayonu | 819.2 | 1226.7 | 1248 | 1637,0 | 1496,8 | 3006,2 |
| Zaqatala rayonu | 588.4 | 874 | 1086.8 | 913,1 | 1034,3 | 990,1 |
| **Lənkəran iqtisadi rayonu** | **1207.1** | **1409.3** | **1811.3** | **1449,6** | **1460,5** | **1096,6** |
| Astara rayonu | 208.2 | 251.4 | 331.9 | 286,5 | 240,5 | 161,6 |
| Cəlilabad rayonu | 221.6 | 220.2 | 247.3 | 230,4 | 245,2 | 164,1 |
| Lerik rayonu | 76.9 | 89.8 | 90.8 | 117,5 | 82,6 | 66,4 |
| Lənkəran şəhəri | 383.5 | 415.5 | 581.1 | 382,9 | 369,0 | 322,8 |
| Masallı rayonu | 236.6 | 342.2 | 450 | 341,4 | 437,5 | 301,8 |
| Yardımlı rayonu | 80.3 | 90.1 | 110.2 | 90,9 | 85,8 | 79,9 |
| **Quba-Xaçmaz iqtisadi rayonu** | **2522.7** | **2809.1** | **3344.5** | **3449,6** | **3732,3** | **3530,6** |
| Şabran rayonu | 209.4 | 248.5 | 353.2 | 320,9 | 304,5 | 316,8 |
| Xaçmaz rayonu | 766.7 | 863 | 986 | 1110,4 | 1214,9 | 1189,7 |
| Quba rayonu | 853.2 | 869.9 | 1035.9 | 1099,3 | 1325,9 | 1108,8 |
| Qusar rayonu | 457.3 | 585.6 | 666.3 | 648,1 | 613,6 | 613,5 |
| Siyəzən rayonu | 236.1 | 242.1 | 303.2 | 270,8 | 273,3 | 301,9 |
| **Aran iqtisadi rayonu** | **4615.5** | **5205.8** | **5724.4** | **5531,1** | **5912,3** | **5466,0** |
| Ağdaş rayonu | 257.1 | 327.4 | 359.2 | 319,2 | 317,0 | 381,1 |
| Ağcabədi rayonu | 365.4 | 424.7 | 382 | 375,8 | 368,0 | 419,9 |
| Beyləqan rayonu | 307.7 | 365.6 | 394 | 380,5 | 450,8 | 308,0 |
| Bərdə rayonu | 426.9 | 460.2 | 461.9 | 364,8 | 285,5 | 382,9 |
| Biləsuvar rayonu | 172.5 | 189.7 | 296.4 | 398,2 | 343,1 | 323,5 |
| Göyçay rayonu | 219.7 | 326.9 | 286.6 | 292,9 | 286,8 | 468,3 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Hacıqabul | 136.6 | 150.5 | 218.4 | 151,3 | 171,1 | 436,3 |
| İmişli rayonu | 151.6 | 154.3 | 210 | 224,5 | 292,8 | 314,4 |
| Kürdəmir rayonu | 230.7 | 156.2 | 188.9 | 165,9 | 174,9 | 345,6 |
| Neftçala rayonu | 201.9 | 245.9 | 269.5 | 297,0 | 284,6 | 277,1 |
| Saatlı rayonu | 162.2 | 136.1 | 125.9 | 143,1 | 132,0 | 234,5 |
| Sabirabad rayonu | 293.8 | 312.4 | 350.6 | 326,4 | 337,6 | 200,4 |
| Salyan rayonu | 416.8 | 494.9 | 566.2 | 631,3 | 1036,4 | 308,8 |
| Ucar rayonu | 197.3 | 284.6 | 329 | 226,1 | 257,6 | 156,7 |
| Yevlax şəhəri | 229.4 | 323.6 | 427.4 | 342,7 | 277,0 | 336,7 |
| Zərdab rayonu | 200.9 | 213.9 | 223.6 | 223,9 | 198,4 | 155,7 |
| **Yuxarı-Qarabağ iqtisadi rayonu** | **288.5** | **275.6** | **288.1** | **301,5** | **279,3** | **507,3** |
| Ağdam rayonu | 68.4 | 83.6 | 72.9 | 75,6 | 77,9 | 338,2 |
| Füzuli rayonu | 65.7 | 64.6 | 67.8 | 64,6 | 63,5 | 60,5 |
| Tərtər rayonu | 154.4 | 127.4 | 147.5 | 161,3 | 137,9 | 108,6 |
| **Dağlıq-Şirvan iqtisadi rayonu** | **974.2** | **1073.6** | **1237.4** | **1125,9** | **1319,5** | **1267,8** |
| Ağsu rayonu | 168.9 | 175.7 | 195.6 | 177,1 | 438,1 | 342,9 |
| İsmayıllı rayonu | 468.4 | 458.7 | 569.2 | 530,7 | 497,3 | 596,4 |
| Qobustan rayonu | 94.6 | 133.5 | 112.5 | 110,5 | 108,7 | 61,4 |
| Şamaxı rayonu | 242.3 | 305.8 | 360.1 | 307,6 | 275,3 | 267,1 |

**Bələdiyyələrin 2015-2020-ci illər arası struktura görə toplam gəlirləri**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| **Yerli büdcənin gəlirləri – cəmi** | **30803.9** | **31617.2** | **36079.4** | **35973,7** | **36381,8** | **34970,6** |
| **Vergilərdən daxilolmalar** | **11580.7** | **12989.1** | **14624.2** | **13932,9** | **14061,6** | **14408,9** |
| fiziki şəxslərdən torpaq vergisi | 5281.3 | 5982.5 | 6468 | 5680,7 | 5294,3 | 5511,7 |
| fiziki şəxslərdən əmlak vergisi | 5928.3 | 6693.7 | 7761.7 | 7783,3 | 7567,4 | 7926,0 |
| yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi | 370.8 | 312.4 | 393.8 | 466,0 | 1198,0 | 969,3 |
| bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan mənfəət vergisi | 0.3 | 0.5 | 0.6 | 2,9 | 1,9 | 1,9 |
| **Vergi olmayan gəlirlər** | **17894.1** | **17532.5** | **20509.8** | **21123,2** | **21386,8** | **19653,9** |
| bələdiyyə mülkiyyətinə daxil olan əmlakınistifadəsindən gələn gəlirlər | 1.7 | 19 | 48.2 | 56,3 | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| küçə (divar) reklamının yerləşdirilməsi vəyayımı üçün ödənişlər | 286.4 | 216.4 | 200.2 | 23,4 | 16,4 | 19,0 |
| bələdiyyələr tərəfindən xüsusi ayrılmış torpaq sahəsində stasionar və ya səyyar ticarət, ictimai iaşə və digər xidmətlərə görə ödənişlər | 88.5 | 66.3 | 66.9 | | 83,9 | 157,9 |
| sanatoriya-kurort, mehmanxana və turizm xidmətlərinə görə ödənişlər | 639.5 | 1003.7 | 1331.2 | | 1957,2 | 633,2 |
| avtomobillərin dayanacaqları üçün ödənişlər | 173.5 | 178.2 | 175.2 | | 279,0 | 240,7 |
| bələdiyyə əmlakının və torpağın özəlləşdirilməsindən və icarəyə verilməsindən gəlirlər | 10300.6 | 10414.7 | 13136.5 | | 13101,3 | 12441,7 |
| bələdiyyə əmlakının və torpağın özəlləşdirilməsindən | 6701.5 | 6440.3 | 8737.4 | | | 7004,1 |
| bələdiyyə əmlakının və torpağın icarəyə verilməsindən | 3599 | 3974.5 | 4399 | 4453,8 | 8359,4 | 5437,6 |
| **fiziki və hüquqi şəxslərin maliyyə yardımları** | **1224.7** | **640.4** | **365.3** | **324,9** | **263,2** | **439,1** |
| fiziki şəxslərin maliyyə yardımları | 1093.6 | 492 | 280.5 | 268,5 | 223,1 | 253,8 |
| hüquqi şəxslərin maliyyə yardımları | 131 | 148.4 | 84.9 | 56,5 | | 185,3 |
| beynəlxalq təşkilatların və fondların maliyyə yardımları və qrantları | 1.4 | - | - | - | | |
| Azərbaycan Respublikasının dövlət büdcəsindən verilən dotasiya və subvensiyalar | 5177.8 | 4993.9 | 5186.3 | 5185,3 | 5685,8 | 5722,2 |
| **Digər gəlirlər** | **1329.1** | **1095.5** | **945.3** | **917,6** | **933,4** | **907,8** |

Tabloya görə söyləyə bilərik ki, bu illər arasında bələdiyyələrin gəlirlərinin əsas qismini **vergilərdən daxilolmalar və vergi olmayan gəlirlər təşkil etmişdir.**

**Vergilərdən daxilolmalar** əsas qismini fiziki şəxslərdən torpaq vergisi və fiziki şəxslərdən əmlak vergisi təşkil edərkən **vergi olmayan gəlirlərin əsas qismini isə** bələdiyyə əmlakının və torpağın özəlləşdirilməsindən və icarəyə verilməsindən gəlirlər təşkil etmişdir.

Azərbaycan Respublikasının dövlət büdcəsindən verilən dotasiya və subvensiyalar mütamadi ayrılması və bələdiyyələrin əsas gəlir mənbəyi kimi dövlətdən aldığı dəstək ildən ilə artmaqdadır.

***Şərh:*** *bu gün Azərbaycanda bələdiyyələr yer axtarır ki, sataraq gəlir əldə etsinlər və rəqəmlərdən də görüldüyü kimi, gəlirlərin əsas qismini bələdiyyə əmlakının və torpağın özəlləşdirilməsindən və icarəyə verilməsindən gəlirlər təşkil etmişdir.*

**Bələdiyyələrin mərkəzi dövlət büdcəsində maliyyə yükü**

Yuxardakı tablodan göründüyü kimi, hər il dövlət büdcəsindən bələdiyyələrin fonduna dotasiya və subvensiyalar artmaqdadır.

Bələdiyyələrin istehsal və yeni xidmət sektorlarının yaradılması yerinə, ancaq bələdiyyə əmlakının və torpağın özəlləşdirilməsindən və icarəyə verilməsindən əldə etdikləri gəlirlər sayəsində gələcəkdə Bələdiyyələrin İnkisaf Proqramı tərtib edilərsə, bu fəaliyyətlərin gerçəkləşdirilməsi mümkünsüz və ya daha maliyyətli olacaqdır.

Mərkəzi dövlət büdcəsinə bələdiyyələr neçəyə başa gəlir sualına ən ideal cavab olaraq Azərbaycan Respublikasının dövlət büdcəsindən ayrılan dotasiya və subvensiyalar, bələdiyyə əmlakının və torpağının özəlləşdirilməsindən və icarəyə verilməsindən əldə etdiyi gəlirlərlər ola bilərdi.

**Bələdiyyələrin faktiki xərclərinin strukturu. Strukturun hər hissəsi üzrə və hər bələdiyyə qrupu üzrə xərclərin həcmi (2010-2020)**

Azərbaycanda bələdiyyələrin 2015-2020-ci illər arasında ölkə üzrə toplam xərcləri aşağıdakı cədvəldə göstərilmişdir:




Azərbaycanda bələdiyyələrin xərcləri, gəlirlərində olduğu kimi, 2019-cu ildə ən yüksək olmuşdur.

Azərbaycanda bələdiyyələrin 2015-2020-ci illər arasında iqtisadi rayonlara görə toplam əldə edilən gəlir aşağıdakı cədvəldə göstərilmişdir:




| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| Bakı şəhəri | 8118.2 | 8711.7 | 9767.2 | 9628.7 | 9868.3 | 9005.5 |
| **Aran iqtisadi rayonu** | **4650.4** | **5189.2** | **5667.1** | **5511.6** | **5984.9** | **5340.9** |
| **Şəki-Zaqatala iqtisadi rayonu** | **2955.6** | **3872** | **4279.4** | **4876.3** | **5071.9** | **6086.6** |
| **Abşeron iqtisadi rayonu** | **6483.2** | **4150.1** | **4588.5** | **3690.2** | **3364.4** | **3103** |
| **Gəncə-Qazax iqtisadi rayonu** | **2789** | **3198.6** | **4066.7** | **5145.4** | **4425.1** | **3603.8** |
| **Quba-Xaçmaz iqtisadi rayonu** | **2537.6** | **2790.5** | **3275** | **3459.1** | **3756.2** | **3333.7** |
| **Lənkəran iqtisadi rayonu** | **1293.9** | **1454.6** | **1844.2** | **1501** | **1501.2** | **1167.9** |
| **Dağlıq-Şirvan iqtisadi rayonu** | **972.8** | **1015.9** | **1196** | **1129.2** | **1337.3** | **1258.5** |
| o cümlədən: Naxçıvan MR | 797.9 | 679.5 | 741.6 | 756.2 | 798.2 | 985 |
| **Yuxarı-qarabağ iqtisadi rayonu** | **283.9** | **266.6** | **285.7** | **298.1** | **271.1** | **498** |

2015-2020-ci illər arasında ölkə üzrə əldə edilən toplam xərclərin təqribən 26% ilə Bakı şəhəri iqtisadi rayonu olmuşdur. Ən az gəstərici isə ölkə üzrə xərclər təqribən 1% ilə Yuxarı-Qarabağ iqtisadi rayonu olmuşdur.

**Bələdiyyə büdcələrinin xərcləri üzrə ümumi göstəricilər:**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| **Ölkə üzrə, cəmi** | **30882.5** | **31328.6** | **35711.5** | **35995,9** | **36378,8** | **34383,0** |
| o cümlədən: Naxçıvan MR | 797.9 | 679.5 | 741.6 | 756,2 | 798,2 | 985,0 |
| Bakı şəhəri | 8118.2 | 8711.7 | 9767.2 | 9628,7 | 9868,3 | 9005,5 |
| **Abşeron iqtisadi rayonu** | **6483.2** | **4150.1** | **4588.5** | **3690,2** | **3364,4** | **3103,0** |
| Sumqayıt şəhəri | 996 | 1488.8 | 1624.2 | 1658,6 | 1423,7 | 1243,7 |
| Abşeron rayonu | 5369.8 | 2525.8 | 2850.5 | 1904,0 | 1767,7 | 1739,2 |
| Xızı rayonu | 117.3 | 135.5 | 113.9 | 127,6 | 173,0 | 120,1 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Gəncə-Qazax iqtisadi rayonu** | **2789** | **3198.6** | **4066.7** | **5145,4** | **4425,1** | **3603,8** |
| Gəncə şəhəri | 466.5 | 504.2 | 627.4 | 645,8 | 923,2 | 939,7 |
| Ağstafa rayonu | 160.9 | 163 | 179 | 188,5 | 156,3 | 168,1 |
| Daşkəsən rayonu | 71.7 | 143.5 | 117.7 | 140,2 | 117,9 | 115,0 |
| Gədəbəy rayonu | 279.8 | 227 | 241.2 | 233,2 | 214,6 | 216,2 |
| Goranboy rayonu | 276.7 | 272.3 | 270.2 | 307,8 | 217,6 | 217,7 |
| Göygöl rayonu | 317.6 | 293.3 | 413.7 | 325,7 | 529,8 | 269,8 |
| Qazax rayonu | 244.9 | 340 | 760.3 | 1992,5 | 920,8 | 453,3 |
| Samux rayonu | 130.1 | 170.1 | 195.3 | 190,9 | 161,0 | 140,7 |
| Şəmkir rayonu | 473.7 | 629.6 | 774.3 | 731,4 | 788,6 | 633,5 |
| Tovuz rayonu | 280 | 290.9 | 316.2 | 265,4 | 263,2 | 259,9 |
| **Şəki-Zaqatala iqtisadi rayonu** | **2955.6** | **3872** | **4279.4** | **4876,3** | **5071,9** | **6086,6** |
| Balakən rayonu | 443.3 | 495.2 | 592.3 | 572,9 | 576,3 | 659,8 |
| Qax rayonu | 375.7 | 600.4 | 658.6 | 596,9 | 609,1 | 570,0 |
| Qəbələ rayonu | 189.2 | 309.3 | 338.3 | 557,1 | 755,3 | 646,1 |
| Oğuz rayonu | 275.2 | 354.7 | 439.9 | 463,0 | 595,6 | 342,9 |
| Şəki rayonu | 1022.5 | 1309.9 | 1283.5 | 1678,2 | 1519,3 | 2889,9 |
| Zaqatala rayonu | 649.8 | 802.5 | 966.8 | 1008,2 | 1016,3 | 977,9 |
| **Lənkəran iqtisadi rayonu** | **1293.9** | **1454.6** | **1844.2** | **1501,0** | **1501,2** | **1167,9** |
| Astara rayonu | 206.1 | 245.9 | 333.2 | 288,1 | 237,1 | 160,1 |
| Cəlilabad rayonu | 219.2 | 219.5 | 246.3 | 230,0 | 239,4 | 161,7 |
| Lerik rayonu | 68.4 | 92 | 92.9 | 114,6 | 85,4 | 61,2 |
| Lənkəran şəhəri | 470.3 | 475 | 632.5 | 432,6 | 426,0 | 393,7 |
| Masallı rayonu | 249.6 | 332.7 | 430.9 | 346,0 | 426,8 | 312,1 |
| Yardımlı rayonu | 80.3 | 89.6 | 108.3 | 89,8 | 86,3 | 79,1 |
| **Quba-Xaçmaz iqtisadi rayonu** | **2537.6** | **2790.5** | **3275** | **3459,1** | **3756,2** | **3333,7** |
| Şabran rayonu | 217.6 | 253.4 | 349.5 | 319,3 | 306,4 | 303,7 |
| Xaçmaz rayonu | 757.1 | 865.5 | 964.6 | 1113,0 | 1228,8 | 1072,3 |
| Quba rayonu | 866.3 | 864.9 | 1015.5 | 1102,7 | 1313,2 | 1077,0 |
| Qusar rayonu | 448.5 | 565.5 | 655.7 | 640,7 | 640,3 | 609,9 |
| Siyəzən rayonu | 248.1 | 241.1 | 289.6 | 283,3 | 267,5 | 270,9 |
| **Aran iqtisadi rayonu** | **4650.4** | **5189.2** | **5667.1** | **5511,6** | **5984,9** | **5340,9** |
| Ağdaş rayonu | 266.5 | 332.1 | 364.5 | 320,3 | 309,2 | 380,4 |
| Ağcabədi rayonu | 354.7 | 423.3 | 375.1 | 371,7 | 368,5 | 373,7 |
| Beyləqan rayonu | 327.1 | 363 | 390.8 | 384,8 | 442,1 | 316,3 |
| Bərdə rayonu | 422.1 | 466.6 | 460.9 | 361,9 | 280,4 | 377,4 |
| Biləsuvar rayonu | 171.8 | 188.4 | 297.1 | 395,1 | 342,9 | 319,0 |
| Göyçay rayonu | 218.4 | 320.2 | 284.6 | 296,7 | 284,8 | 460,2 |
| Hacıqabul | 131.9 | 153.7 | 219.8 | 146,7 | 174,3 | 438,2 |
| İmişli rayonu | 150.9 | 152.4 | 210.2 | 222,3 | 298,8 | 296,8 |
| Kürdəmir rayonu | 229.8 | 155.9 | 188.2 | 167,9 | 174,8 | 338,9 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Neftçala rayonu | 199.1 | 243 | 267.9 | 296,6 | 288,8 | 271,6 |
| Saatlı rayonu | 161.8 | 135.9 | 125.9 | 142,9 | 132,1 | 220,9 |
| Sabirabad rayonu | 297.5 | 293.5 | 347.5 | 331,0 | 347,7 | 201,0 |
| Salyan rayonu | 416.7 | 499 | 561.6 | 614,7 | 1056,5 | 302,9 |
| Ucar rayonu | 198.4 | 280.5 | 323.9 | 233,1 | 258,8 | 155,9 |
| Yevlax şəhəri | 225 | 323 | 425.2 | 330,0 | 283,1 | 332,0 |
| Zərdab rayonu | 204.4 | 211.4 | 223.2 | 221,2 | 201,5 | 144,3 |
| **Yuxarı-Qarabağ iqtisadi rayonu** | **283.9** | **266.6** | **285.7** | **298,1** | **271,1** | **498,0** |
| Ağdam rayonu | 65.7 | 84.3 | 71.5 | 72,5 | 70,8 | 333,7 |
| Füzuli rayonu | 64.4 | 63.7 | 67.7 | 64,5 | 62,8 | 58,4 |
| Tərtər rayonu | 153.9 | 118.5 | 146.6 | 161,1 | 137,6 | 106,0 |
| **Dağlıq-Şirvan iqtisadi rayonu** | **972.8** | **1015.9** | **1196** | **1129,2** | **1337,3** | **1258,5** |
| Ağsu rayonu | 166.4 | 174.8 | 195.2 | 176,4 | 434,8 | 331,5 |
| İsmayıllı rayonu | 474.7 | 435.3 | 575 | 517,5 | 521,4 | 571,5 |
| Qobustan rayonu | 93.9 | 132 | 110.3 | 113,0 | 107,4 | 59,6 |
| Şamaxı rayonu | 237.8 | 273.8 | 315.6 | 322,3 | 273,8 | 295,9 |

**Bələdiyyələrin 2015-2020-ci illər arası struktura görə xərcləri**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| **Yerli büdcənin xərcləri, cəmi** | 30882.5 | 31328.6 | 35711.5 | 35995,9 | **36378,8** | **34383,0** |
| o cümlədən: | | | | | | |
| - yerli özünüidarəetmə orqanının saxlanılmasına | 16959.4 | 18984.6 | 21092.7 | 20772,4 | 22311,1 | 22579,3 |
| - təhsil xərcləri | 90.6 | 79.3 | 75.7 | 65,5 | 72,9 | 14,0 |
| - səhiyyə xərcləri | 19.8 | 21.9 | 16.1 | 15,0 | 6,6 | 3,1 |
| - sosial müdafiə və sosial təminat xərcləri | 1242.4 | 1250.6 | 1247.3 | 1332,7 | 1397,0 | 1627,4 |
| o cümlədən: | | | | | | |
| - sosial müdafiə xərcləri | 574.5 | 655.2 | 530.9 | 640,3 | 823,2 | 896,7 |
| - sosial təminat xərcləri | 667.8 | 595.4 | 716.3 | 692,3 | 573,7 | 730,6 |
| mədəniyyət,incəsənət,informasiya, tərbiyəsi və digər kateqoriyalara aid bədən edilməyən sahədə fəaliyyətlə bağlı xərclər | 372.2 | 397.7 | 438.9 | 412,7 | 388,3 | 320,7 |
| ondan: - bədən tərbiyəsi, gənclər siyasəti və turizm xərcləri | 62.4 | 44.3 | 37.7 | 31,0 | 21,2 | 123,4 |
| - mənzil-kommunal təsərrüfatı xərcləri | 7208.6 | 5652.8 | 7146.2 | 7764,2 | 6322,2 | 5294,0 |
| o cümlədən: | | | | | | |
| - mənzil təsərrüfatı xərcləri | 1094.4 | 1100.9 | 1381 | 1359,0 | 1294,2 | 1418,6 |
| - kommunal təsərrüfatı xərcləri | 6114.2 | 4551.8 | 5765.2 | 6405,2 | 5028,0 | 3875,4 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| - yanacaq və enerji xərcləri | - | 10.5 | - | - | 2,9 | 8,3 |
| - kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi xərcləri | 368.1 | 402.1 | 470.6 | 562,6 | 339,0 | 271,8 |
| ondan:- ətraf mühitin mühafizəsi xərcləri | 259.4 | 230.1 | 296.9 | 304,3 | 95,3 | 94,2 |
| sənaye, tikinti və faydalı qazıntılar üzrə xərclər | - | - | - | - | 526,5 | |
| - nəqliyyat və rabitə xərcləri | | 2183.4 | 2588.1 | 2205,2 | 2521,1 | 1227,8 |
| ondan:- avtomobil yolları və avtomobil nəqliyyatı xərcləri | 2766.8 | 2183.4 | 2588.1 | 2205,0 | 2521,1 | 1227,8 |
| - digər xərclər | 1854.6 | 2345.9 | 2635.9 | 2865,7 | 3017,7 | 2510,1 |
| **Profisit (+), kəsir (-)** | -78.6 | 288.6 | 367.9 | -22,2 | **3,0** | **587,6** |

Azərbaycanda bələdiyyələrin əksəriyyətinin DSMF borcu vardır ki, bu da ildən ilə artmaqdadır. DSMF borclarının artması və bələdiyyələr tərəfindən odənilməməsi səbəbi ilə bələdiyyələrin bank hesabları dondurulmuşdur. Nümunə olaraq Gədəbəy bələdiyyəsini göstərə bilərik. Gədəbəy bələdiyyəsinin 01 yanvar 2020-ci il tarixinə DSMF-na əvvəlki illərin hesabına 21.100 manat borc yaranmışdır. Bələdiyyənin hesablaşma hesabı DSMF tərəfindən bağlandığından bələdiyyə çətin vəziyyətə düşmüşdür.

İlin yekunana baxdığımızda görürük ki, bələdiyyələrin əksəriyyəti maliyyə ilinin sonunu borcla yekunlaşdırmış və proqnozlaşdırılmış gəlirlərin az bir qismini təmin etmişdir. Bu da bələdiyyələrin fəaliyyətinin düzgün qurulmamasından və əksər rayon və kənd bələdiyyələrinin qanundan tam xəbərdar olmamasıdır.

**Bələdiyyələrin Türkiyə ilə müqayisədə inzibati idarəetmə forması**

Türkiyədə bələdiyyələr vilayətlər (illər) və rayonlar (ilçələr) olaraq bölünürlər. Hər ildə bir böyükşəhər bələdiyyəsi var və o bütün vilayəti təmsil edir. Rayon bələdiyyələri boyükşəhər bələdiyyəsinə tabedirlər.

Bələdiyyələrin özlərinin nəzdində müəssisələr yaradaraq müstəqil fəaliyyət göstərirlər. Böyükşəhər bələdiyyələri iqtisadi cəhətdən zəif olan bələdiyyələrə maddi dəstək göstərərək həm təmir tikini baxımdan inkişafa nail olur, həm də böyükşəhər bələdiyyəsi büdcəsindən yardım ayıraraq digər müəssisə təşkilatlarının yaranmasına tövhə verir. Azərbaycanda isə bütün bələdiyyələr biri-birindən əlaqəsiz və müstəqil fəaliyyət göstərir.